**Sadıqova A.N.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.149-161**
**UOT: 314.727.2**

# Urbanizasiya proseslərində miqrasiyanın yeri və rolu

**Xülasə:** Məqalədə miqrasiya proseslərində urbanizasiyanın yeri və rolu araşdırılır. Urbanizasiyaya verilən anlayışlar, onu şərtləndirən amillər, statistik məlumatlar, onun hüquqi mahiyyəti və bu sahədə qəbul edilmiş bir sıra normativ hüquqi aktlar müqayisəli şəkildə təhlil edilir. Urbanizasiyanın miqrasiya proseslərinin tərkib hissəsi olduğu qənaətinə gəlinir. Həmçinin, urbanizasiya proseslərində mövcud olan nöqsanlar barədə bir sıra elmi təkliflər verilir.

**Açar sözlər:** miqrasiya; miqrasiya prosesləri; urbanizasiya; urbanizasiya prosesləri; şəhər; kənd yerləri; qeydiyyat; statistik məlumatlar; demoqrafiya; meqolopolis; aqlomerasiya.

Müasir dövrdə dünyada baş verən siyasi-iqtisadi hadisələr fonunda urbanizasiya prosesləri sürətlə artmaqda davam edir. Urbanizasiya miqrasiya proseslərinin tərkib hissəsi olmaqla yanaşı, bu sahədə yaranan problemlərin hüquqi tənzimlənməsinə də günü-gündən tələbat artmaqdadır. Bu məqsədlə Azərbaycan Respublikasında urbanizasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, urbanizasiya proseslərinin hüquqi tənzimlənməsi və bu sahədə milli qanunvericiliyin müasir dövrün tələblərinə uyğun təkmilləşdirilməsini təmin etmək məqsədi ilə bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Urbanizasiya proseslərini tənzimləyən normativ hüquqi aktlarda təsbit edilmiş yeni normaların doktrinal qaydada izah və şərh edilməsinə və bu sahədə yeni nəzəri və təcrubi biliklərə ehtiyac vardır. Yaxşı olar ki, miqrasiya proseslərində urbanizasiyanın yeri və rolunu təhlil etməzdən öncə hüquq ədəbiyyatında urbanizasiyaya verilən anlayışları və onun hüquqi mahiyyətini nəzərdən keşirək.

Qeyd etmək lazımdır ki, XIX əsrin əvvəllərindən başlayaraq dünyanın əksər ölkələrində həm iqtisadi həm də siyasi cəhətdən şəhərlərin rolu xeyli artmağa başlamışdır. Dünyada sənaye sahəsinin güclü inkişafı nəticəsində əhalinin kəndlərdən şəhərlərə miqrasiya axınına səbəb olmuşdur. Bu da, öz növbəsində şəhərlərin böyüməsinə urbanizasiya proseslərinin baş verməsinə gətirib çıxarmışdır. Fikrimizcə, urbanizasiya təkcə iqtisadi və sosial vəziyyətin məsulu deyil. O həm də siyasi və hüquqi münasibətlərin məsuludur. Bunu urbanizasiyaya verilən anlayışlardan da görmək olur. Urbanizasiyanın hüquqi mahiyyətinin müəyyən etmək üçün mənbələrdə urbanizasiyaya verilən anlayışları nəzərdən keçirək.

Hüquq ədəbiyyatında göstərilir ki, Urbanizasiya – latınca "*urbanus"* olub mənası şəhər deməkdir. Urbanizasiya iki mənada işlədilir: 1) böyük şəhərlərdə əhalinin və iqtisadi həyatın cəmləşməsi prosesi; 2) şəhərə, sənaye mərkəzinə xas olan xüsusiyyətlərin və əlamətlərin paylanması [10, s. 515].

Digər mənbədə göstərilir ki, urbanizasiya latın sözüdür və *"urbanus"*-şəhər deməkdir. Urbanizasiya şəhərlərin cəmiyyətin inkişafında rolunun artması prosesinin elmi adıdır [13].

♦ **Sadıqova Afaq Nadir qızı** - Hüquq və İnsan Haqları İnstitutunun "Mülki hüquq, mülki proses, sosial-iqtisadi hüquqlar" söbəsinin böyük elmi işçisi (Azərbaycan). E-mail: afaqsadiqova6@gmail.com

Başqa bir hüquq ədəbiyyatında qeyd edilir ki, urbanizasiya - *(lat. urbs- şəhər)* latın sözu olub mənası şəhər deməkdir. Urbanizasiya - cəmiyyətin inkişafında şəhərlərin rolunun artırılması prosesidir. Karl Marks göstərir ki, urbanizasiyanın əsas sosial məzmunu xüsusi "şəhər münasibətləri"nə daxil olmasıdır. Urbanizasiya - əhalinin sosial məşğulluğunu və demoqrafik strukturlarını, onun həyat tərzini, mədəniyyətini əhatə etməsi, köçürmələr və yerləşdirilməsi qüvvələrini yaradır. Urbanizasiyanın ilkin şərtləri şəhərlərdə sənayenin inkişafı, onların mədəni və siyasi funksiyalarının inkişafı, əmək bölgüsünün ərazisinin dərinləşməsidir [12, s. 1390].

Bir sıra ədəbiyyatlarda urbanizasiya proseslərinə müxtəlif yanaşmalar mövcuddur. Məsələn, hüquq mənbələrinin birində göstərilir ki, urbanizasiya dünya, region, ölkə əhalisi arasında şəhər əhalisinin artması, şəhərlərin rolunun yüksəlməsi, şəhər həyat tərzinin geniş yayılmasına deyilir. Bundan başqa, *urbanizasiya* – etnoqrafiya terminlərinə də daxil edilmişdir. Etnoqrafik ədəbiyyatda bu anlayış belə məna kəsb edir ki, urbanizasiya şəhər mədəniyyətinin standart tiplərinin yayılması ilə kəndlə şəhər arasındakı mədəni fərqlərin aradan qalxmasina deyilir [14].

Yuxarıda ayrı-ayrı hüquqi mənbələrdə urbanizasiyaya verilən anlayışlardan göründüyü kimi urbanizasiya latın sözü *"urbanus"* olub mənası şəhər deməkdir. Həmçinin urbanizasiya anlayışı kənd əhalisinin şəhərə miqrasiya etməsi nəticəsində yaranan miqrasiya prosesidir. Habelə, urbanizasiya sənayenin və əhalinin iri şəhərlərdə toplanmasına cəmlənməsinə səbəb olur. Belə ki, dünyanın əksər ölkələrində kənd əhalisinin müəyyən təbəqəsi öz həyat şəraitini yaxşılaşdırmaq məqsədilə nisbətən kiçik şəhərlərə miqrasıya etmiş, özlərinə iş yerləri taparaq, yerli əhali ilə birgə mədəniyyətə sahib olmuş və digər amillər kiçik şəhərləri iri sənaye şəhərlərinə çevirilməsinə gətirib çıxarmışdır. Əhalinin urbanizasiya prosesi təkcə bir ölkənin daxilində kənddən şəhərə deyil, həm də kiçik şəhərlərdən böyük şəhərlərə miqrasiya etməsi kimi başa düşülür. Əhalinin bu cür demoqrafik miqrasiyası ölkə daxili miqrasiya proseslərinin hüquqi əsasını təşkil edir.

Urbanizasiyaya verilən anlayışlardan göründüyü kimi o şəhər mənasını yəni insanların kəndlərdən şəhərlərə miqrasiya etməsi kimi başa düşülsə də lakin bu proseslərin özü miqrasiya proseslərinin tərkib hissəsi kimi çıxış edir. Məlum olduğu kimi miqrasiya proseslərinin hüquqi tənzimlənməsi də Miqrasiya qanunvericiliyi ilə həyata keçirilir. Bu baxımdan urbanizasiya həm iqtisadi və sosial vəziyyətin məsulu kimi, həm də hüquqi münasibətlərin məsulu kimi çıxış edir.

Müasir dövrdə urbanizasiya prosesinin dörd əsas xüsusiyyəti vardır. Birincisi, şəhər əhalisinin artım sürətinin yüksək olması. İkincisi, əhalinin və təsərrüfatın, əsasən, böyük şəhərlərdə cəmləşməsi. Üçuncüsü, şəhərlərin genişlənərək aqlomerasiyalara (meqapolis) və meqalopolislərə çevrilməsi. Dördüncüsü urbanizasiyanın miqrasiya proseslərinin tərkib hissəsi kimi çıxış etməsi.

Qeyd edilməlidir ki, urbanizasiyaya şəhərlərdə sənayenin həcminin artması, şəhərin mədəni və siyasi funksiyalarının artması, əməyin bölgüsü strukturunu dəyişməsi şərtləri səbəb olur. Urbanizasiyanın əsas göstəricisi kənd əhalisinin şəhərlərə köçməsi, kiçik şəhərlərin böyüməsi və ətraf kənd yaşayış yerlərini öz tərkibinə qatmasıdır. Çox vaxt urbanizasiyanın baş verməsəbəbini insanların iqtisadi və sosial vəziyyətlə əlaqələndirirlər. Fikrimizcə, bu proseslərin əsas səbəblərindən biri də müvafiq dövlət orqanları tərəfindən insan və vətəndaş hüquq və azadlıqlarının pozulması halları ilə bağlıdır. İnsanların iqtisadi və sosial vəziyyətlərinin pisləşməsinin özü də hüquqi münasibətlərin düzgün tənzimlənməməsi ilə bilavasitə bağlıdır. Buna baxmayaraq urbanizasiyanın baş vermə səbəbləri həmişə iqtisadi və sosial problemlərlə əlaqələndirilir. Halbuki bu proseslərdə hüququn çəkisi diqqəti cəlb edəndir. Məsələn, urbanizasiya proseslərinin miqrasiya proseslərinin əsas tərkib hissəsi kimi çıxış etməsi bu proseslərin dövlət tərəfində hüquqi

tənzimlənməsi ilə bağlı qəbul etdiyi müvafiq normativ hüquqi aktların icrası mühüm əhəmiyyət kəsb edir.

Xüsusilə qeyd etmək lazımdır ki, ölkəmizin regionlarında kənd əhalisinin şəhərə urbanizasiya proseslərinin qarşısının alınması və kənd əhalisinin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ilə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" təsdiq edilmişdir. Bu proqram çərçivəsində qısa müddətdə regionların sosial-iqtisadi həyatında köklü dəyişikliklər baş vermiş, rayonların infrastrukturları yenidən qurulmuş, qəsəbə və kəndlərdə təhsil, mədəniyyət, səhiyyə, idman və digər sosialyönümlü obyektlərin inşası və əsaslı təmiri həyata keçirilmiş, əhalinin məşğulluğu təmin edilmişdir. Bütün bunlar regionlarda davamlı və dinamik inkişafı təmin etməklə bərabər, həm də əhalinin həyat səviyyəsinin keyfiyyətcə yüksəlməsinə səbəb olmuşdur [3].

Ölkəmizin bütün regionlarında olduğu kimi Bakı şəhərinin qəsəbələrinin də sosial-iqtisadi inkişafının təmin edilməsi, əhalinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması istiqamətində mühüm normativ hüquqi aktlar qəbul edilir. Bu aktlardan biri də "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 27 fevral 2006-cı il tarixli 1338 nömrəli Sərəncamıdır.

Demək olar ki, dövlətimiz ölkə vətəndaşlarının sosial rifahının yaxşılaşdırılmasına daim diqqət yetirmişdir. Belə ki, Azərbaycan Respublikasında iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək, əhalinin sosial rifahını yüksəltmək, habelə cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirməklə, inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq məqsədilə bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Bu aktlardan biri "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanını göstərmək olar. Bu Konsepsiyanın 11-ci bəndində göstərilir ki, son on ildə Azərbaycanda şəhər əhalisinin xüsusi çəkisi nisbətən artmışdır. Urbanizasiya meyilinin növbəti illərdə də davam edəcəyi gözlənilir ki, bu da şəhər infrastrukturunun formalaşdırılması ilə bağlı qarşıya yeni tələblər qoyur. Paytaxtda və ölkənin digər yerlərində həm dövlət, həm də özəl sektor tərəfindən aparılan tikinti-abadlıq işləri və iqtisadiyyatın bütün sahələrinin inkişafı üzrə həyata keçirilən tədbirlər zamanı ətraf mühitin mühafizəsi tələbləri ön planda olacaqdır [4].

Bundan başqa, ölkəmizdə regionlarının inkişafı ilə bağlı və özündə sosial-iqtisadi inkişaf strategiyasını ehtiva edən bir sıra normativ hüquqi aktlar da qəbul edilmişdir. Bu aktlardan biri də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanıdır. Bu Dövlət Proqramı çərçivəsində ölkədə regionların inkişafı ilə əlaqədar tənzimlənmə sisteminin, o cümlədən qanunvericilik bazasının, institusional və iqtisadi mexanizmlərin daha da təkmilləşdirilməsi nəzərdə tutulur [5].

Düşünürəm ki, ölkəmizdə dövlətin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində insanların layiqli iş yerləri ilə təmin edilməsi, mənzil şəraitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafı istiqamətində apardığı siyasət öz müsbət tövhəsini verməkdədir. Bütün bunlar vətəndaşların həyat şəraitini yaxşılaşdırmaqla yanaşı ölkəmizdə urbanizasiya proseslərinin müsbət istiqamətdə tənzimlənməsinə xidmət edəcəkdir.

Təcrübə göstərir ki, bu istiqamətdə dövlətimiz tərəfindən aparılan ardıcıl tədbirlərə baxmayaraq hələ də kənd əhalisinin Bakı şəhərinə urbanizasiya prosesləri kor təbii şəkildə və nizamsız davam etməkdədir. Fikrimizcə, bu proseslərin qarşısını almaq üçün inzibati metodlardan istifadə edilməsini məqsəduyğun saymaq olar.

Urbanizasiya proseslərinin yaranmasının əsas xüsüsiyyətlərindən biri də iqtisadi baxımdan inkişaf edən iri şəhərlərin yaranması və əhalinin həyat şəraitinin yaxşılaşdırılamsı ilə əlaqədardır. Bu halda kənd əhalisinin şəhərə miqrasiyası artır. Nəticədə urbanizasiya prosesi əhalinin miqrasiya prosesinin tərkib hissəsini təşkil etmiş olur. Urbanizasiya prosesində şəhərsalma texnologiyası, onun hüquqi və sosial-ekoloji tərəfləri də mühüm şərtlərdən biridir. Son illərdə Bakı şəhərində xeyli çoxmərtəbəli yaşayış binalarının ucaldılması, köhnə binaların sökülməsi, şəhər ətrafında şəxsi evlərin tikintisinin sürəti şəhərsalmanın hüquqi və sosial-ekoloji məsələlərinin aktual problem olduğunu göstərir [7, s. 44].

Ölkəmizdə vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində yeni yaşayış binalarının inşaa edilməsi bir tərəfdən vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına hesablanırsa, digər tərəfdən isə bu vətəndaşların Azərbaycan Respublikasının Konstitusiyasının 43-cü maddəsində təsbit edilmiş mənzil hüququnu özündə ehtiva edir. Həmin maddənin II hissəsində göstərilir ki, “dövlət yaşayış binalarının və evlərin tikintisinə rəvac verir, insanların mənzil hüququnu gerçəkləşdirmək üçün xüsusi tədbirlər görür” [1, s. 12].

Urbanizasiya anlayışı dar və geniş mənada başa düşülür. Urbanizasiya dar mənada şəhərlərin sayının və şəhərlərdə yaşayan əhalinin sayının artması prosesidir. Bu mənada urbanizasiya demoqrafik xüsusiyyətə malikdir. Lakin urbanizasiya sadəcə olaraq əhali artımı prosesi olmayıb, eyni zamanda cəmiyyətin iqtisadi və ictimai quruluşunda baş verən dəyişiklikləri də özündə əks etdirir. Geniş mənada urbanizasiya sənayeləşmə və iqtisadi tərəqqiyə paralel olaraq, şəhərlərin kəmiyyətcə artması və böyüməsi nəticəsində, cəmiyyətdə sürətli təşkilatlanma, əmək bölgüsü və ixtisaslaşma yaratmaqla, insanların davranış və münasibətlərində şəhərə xas olan dəyişikliklərə yol açan bir əhali artımı prosesi olmaqla yanaşı, həmd əhalinin miqrasiya prosesləri kimi xarakterizə edilir.

Qeyd etmək lazımdır ki, şəhər əhalisinin sürətlə artması, kənd əhalisinin şəhərə miqrasiyası və nəticədə iri şəhərlərin formalaşma prosesi qədim zamanlardan yaranmağa başlamışdır. Demək olar ki, şəhərlərin formalaşma prosesini şərti olaraq üç dövrə ayırmaq olar. Birinci dövr- ilk urbanizasiyanın yarandığı XVI -XVII əsrlərə təsaduf edir. Bu dövrdə yerli qidalanma, əl əməyi, külək və sudan alınan enerji və s. mövcud idi. Kifayət qədər inkişafın olmaması ilk ekoloji problemlərin yaranmasına gətirib çıxarmışdı. İkinci dövr – su təchizatı və quru nəqliyyatın yaranması, yolların çəkilməsi, istilik yanacağından istifadə ilə müşahidə olunmuşdur. Üçüncü dövr - XIX əsrdən etibarən başlamışdır.

Cəmiyyətin həyatında şəhərlərin əhəmiyyətinin artması, ictimai-iqtisadi inkişafla əlaqədar əhalinin şəhərlərə axını prosesi ilə baş verir. Urbanizasiya əhalinin sosial-peşə, demoqrafik strukturunu, həyat tərzini, mədəniyyətini, məhsuldar qüvvələrin yerləşdirilməsini, məskunlaşmasını, digər sahələri əhatə edir. Dünya şəhərlərində yaşayan əhalinin sayı XIX əsrin əvvəlinə 29 mln., 1900-cü ildə 224 mln., 1950-ci ildə 706 mln, 1980-ci ildə 1 mlrd. 809 mln. nəfər olub. Urbanizasiyanın ən bariz göstəricisi sənayeləşmədir [15].

Hüquqi doktorinada urbanizasiyayanın kiçik və ya iri şəhər mənasının verilməsi ilə bağlı fərqli yanaşmalar və fikirlər mövcuddur. Demək olar ki, dünyada vahid şəhər anlayışı yoxdur. Şəhər anlayışı əhalisinin sayından aslı olmayaraq müəyyən edilir. Məsələn, Danimarka, İsveç,

Finlandiyada əhalisi 200, Kanada, Avstraliyada 1000, Fransa, Almaniya, Kubada 2000, Meksika, ABŞ-da 2500, Yaponiyada isə 30.000 nəfərdən çox olan yaşayış məntəqəsi şəhər adlanır [11, s. 20].

Dünyada urbanizasiya proseslərinin yaranmasının əsas səbəblərdən biri sənayenin inkişafı ilə bağlıdır. Belə ki, sənaye inqlabından sonra dünyada şəhərlərin istər iqtisadi, istərsə də siyasi strukturunda bir çox dəyişiklər baş verdi. Məsələn, İngiltərədə başlayan sənaye inqilabı, müəyyən fasilələrlə Almaniya, Fransa, İsveçrə və Belçika kimi digər Avropa ölkələrinə yayılmışdır. Qərbdə bu tərəqqi ümumiyyətlə təxminən 200 il davam etmiş, və burada artıq şəhər cəmiyyəti formalaşmışdır. Bütün sənaye sahələri köhnə şəhərlərdən, enerji mənbələrinin, nəqliyyat vasitələrinin, xammal ehtiyatlarının və işçi qüvvəsinin ucuz və əlverişli olduğu yerlərə axın etməyə başladı. Məhz sənaye inqlabından sonra, urbanizasiya prosesi başlamış və get-gedə geniş vüsət almışdır. Göründüyü kimi sənayeləşmə urbanizasiya proseslərinin şərtləndirən əsas amillərdən biri olmuşdur.

Qeyd etmək lazımdır ki, urbanizasiya prosesinin yaranmasında təkcə sənayeləşmə deyil həm də iqtisadi, texnoloji, siyasi və sosioloji amillərin böyük rolu vardır. İqtisadi amillərdən birincisi kəndliləri yaşadıqları kəndlərdən şəhərlərə sarı istiqamətləndirən miqrasiya amilidir. Kənd təsərrüfatında müasir texnoloji avadanlıqların tətbiqi ilə ibtidai üsulların aradan çıxması, bir sözlə kapitalist sənayenin kənd təsərrüfatına sirayət etməsi, bu sahədə işçi qüvvəsinə tələbatı xeyli azaltmışdır. Urbanizasiyanın sürətlənməsinə təkan verən amillərdən digəri isə müsbət miqrasıya adlandıra biləcəyimiz, kəndlilərin firavan və təminatlı həyat tərzi əldə etmək və şəhərin yüksək mədəni, sosial, iqtisadi mühitindən istifadə etmək ümidi ilə kəndlərdən şəhərə axınıdır. Coğrafiyaşünasların fikrincə, son dövrlər əhalinin artımına ölkələrdaxili urbanizasiya böyük təsir göstərməkdədir. Yəni əhalinin daha çox şəhərlərdə cəmlənməsi doğumun səviyyəsini aşağı salır. Bu isə sosial-iqtisadi amillərlə izah oluna bilər. Yəni şəhərdə ailə uşaqların sayını aylıq maddi gəlirlərə və yaşadığı ev imkanlarına görə müəyyənləşdirir. Kənd yerlərində isə əhali şəhərdəkilərə nisbətən daha geniş dolanışıq imkanlarına malikdir və bu səbəbdən də ailədə uşaqların sayının, məsələn, 3-dən artıq olması təəccüblü deyil. Fikrimizcə, Azərbaycan da daxil olmaqla istənilən ölkədə əgər əhali artımının statistikasını şəhər və kəndlərdə ayrı-ayrılıqda aparsaydılar, kəndlərdə təbii artımın daha yüksək olduğu üzə çıxardı. Şəhərlərdə isə artım prosesində urbanizasiya böyük rola malikdir. Yəni iş və daha komfortlu həyat naminə, xüsusilə gənclər, şəhərlərə üz tuturlar və əksəriyyət həmişəlik şəhərlərdə qalır.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə Azərbaycan Respublikasında 2021-ci ildə əhalinin ümumi sayı 10119,1 (on milyon yüz on doqquz min) nəfər təşkil edirdi. Onlardan kişilər 5053,8 (49,9 %), qadınlar isə 5065,3 (50,1%) təşkil edir. Ölkəmizdə şəhər və kənd yerlərində doğum və ölum statistikası bir qədər fərqlidir. Belə ki, 2020-ci ilin statistik məlumatlarına görə şəhər yerləri üzrə diri doğulanların sayı 61515 nəfər (45,7 %), kənd yerləri üzrə diri doğulanların sayı isə 65056 nəfər (44,8 %) təşkil edir. Statistik məlumatlara görə şəhər və kənd yerlərində 1 yaşadək ölən uşaqların sayı fərqlidir. Belə ki, 2020-ci ildə şəhər yerləri üzrə 1 yaşadək ölən uşaqların sayı 880 nəfər, kənd yerləri üzrə 1 yaşadək ölən uşaqların sayı isə 362 nəfər təşkil edir [16].

Urbanizasiya prosesinə əks olan proseslərdən biri suburbanizasiya prosesidir. Suburbanizasiya əhalinin şəhər mərkəzlərindən, başqa yaşayış məntəqələrindən şəhər ətrafına köçməsi prosesinə deyilir [17].

Əhalinin şəhər mərkəzlərindən kənarlara köçməsi, əsasən, dünyanın ən iri şəhərlərdə baş verir. Suburbanizasiya prosesi əsasən inkişaf etmiş ölkələrə (bundan sonra - İEÖ) xasdır. Belə ki,

İEÖ-də şəhərlərdə ekoloji vəziyyətin kəskin xarakter alması nəticəsində suburbanizasiya prosesi yaranmışdır. Dünyanın bir sıra ölkələri o cümlədən Almaniya, Avstriya, Belçika, Böyük Britaniya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Çexiya, İrlandiya, İslandiya, İspaniya, İsveçrə, İtaliya, Kipr, Çin Respublikası, Yaponiya və s. inkişaf etmiş ölkələr hesab edilir [18].

Məsələn, ABŞ, Almaniya, Fransa və digər İEÖ ölkələrdə əhalinin çox hissəsi şəhər ətrafında yaşayırlar. Bunun səbəbi İEÖ-də şəhər ətrafı ilə şəhər mərkəzində yaşayış səviyyəsi eyni olmasıdır. Bu səbəbdən yerli əhali şəhər ətrafında yaşamağa üstünlük verir. Buna görədə hal-hazırda İEÖ-də şəhər əhalisinin xüsusi çəkisi artmır. Ölkələrin inkişaf etmiş qrupa daxil edilməsi üçün insanların həyat və sağlamlıq səviyyəsinin yüksək olması, ümumi daxili məhsul hər bir nəfərə orta hesabla 20-30 min ABŞ dolları həcmində olması, orta ömür müddətinin çoxluğu, əhalinin təhsil səviyyəsinin yüksək olması və s. amillər nəzərə alınır.

Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə (bundan sonra - İEOÖ) Suburbanizasiya prosesi İEÖ-ə nisbətən bir qədər fərqlidir. Belə ki, İEOÖ-in şəhər əhalisinin artım sürəti əhalinin artımından bilavasitə aslıdır. Bu həm təbii artımın yüksək səviyyəsi, həm kəndlərdən şəhərlərə gedənlərin sayının artması ilə əlaqədardır. Bu halda şəhər iqtisadiyyatının yüksəlməsinə görə şəhərlilər artır. Odur ki, onlar işlə və digər sosial tələbatla təmin oluna bilmirlər. Nəticədə şəhərlilərin payı artsada iqtisadi həyatda onların payı heç də artmır. Buna yalançı urbanizasiya deyirlər. Buna görədə bəzi İEOÖ-də urbanizasiyanın səviyyəsinin yüksək olması o ölkələrin inkişaf göstəricisi ola bilməz. Yalançı urbanizasiyanın mövcüd olduğu şəhərlərdə "yoxsulluq zonaları" yaranır. Məsələn, belə yerlərə Braziliyada "favel", Afrikada "bidonvil", Türkiyədə isə "Gecəqondu" deyirlər. İEOÖ sırasına Braziliya, Meksika, Hindistan, Səudiyyə Ərəbistanı, Kuveyt, İndoneziya, Tailand, Malaziya və s. dövlətlər daxildir.

Beynəlxalq təcrübəyə görə şəhərlər böyük, iri və milyonçu şəhərlərə bölünür. 1900-cu ildə 10, hazırda isə 400-dən çox milyonçu şəhər vardır. Milyonçu şəhərlərin sayına görə Çin, ABŞ, Hindistan və Rusiyanı fərqləndirmək olar. Bundan başqa, dünyanın ən iri şəhərlərinə misal olaraq Mexiko, Tokyo, Nyu-York, Los-Angeles, London, Paris, İstanbul, Karaçı, Mumbay, Pekin, Sao Paulo, Şanxay kimi şəhərləri göstərə bilərik. İri şəhərlər sisteminə daxil olan və yığcam ərazidə birləşən iri şəhərlər sistemi aqlomerasiya adlanır. İEÖ-də, Latın Amerikasında, Hindistanda və Çində çoxmilyonlu aqlomerasiyalar formalaşıb. Hətta Bakını da aqlomerasiya hesab etmək olar [19].

Urbanizasiya prosesinin ən yüksək mərhələsi aqlomerasiya və şəhərlərin birləşməsi olan meqalapolislərdir. İlk dəfə Amerikan alimi Lewis Mumford özünün 1938-də çap etdirdiyi "The culture of cities" kitabında meqalopolis sözünü istifadə etmişdir. Meqalopolis yunan sözü olub mənası *Meqa – nəhəng, Polis* – şəhər deməkdir. Bəzi böyük şəhərlər və aqlomerasiyalar bir-birinə yaxın yerləşdiyi üçün böyüyərək bir-birinə yaxınlaşırlar və Meqalopolis yaradırlar. Dünyada ilk meqalopolislər Amerikada yaranmışdır. Buna səbəb şəhərlər arasında nəqliyyat əlaqələrinin inkişaf etməsi idi. Sonradan bu meqalopolislər Avropaya yayıldı. Lakin hazırda daha çox meqalopolis Asiyada Mövcüddur. Dünyada çox sayda meqalopolislər vardır. Meqalopolisləri çox zaman dərininə urbanizasiyada adlandırılırlar [20].

Müasir dövrdə cəmiyyətimizdə baş verən siyasi, iqtisadi və sosial dəyişikliklər respublikamızın şəhər məskunlaşmasına öz təsirini göstərir. Belə ki, Azərbaycan şəhərləri öz inkişafında yeni mərhələyə keçir, bu isə öz növbəsində onu bir sıra problemlərlə qarşılaşdırır. Məskunlaşmanın mütərəqqi mərhələsi olan urbanizasiya bir çox iqtisadi və sosioloji əlaqələrə malikdir. Urbanizasiyanın inkişafı məhsuldar qüvvələrin yüksəlişi, məskunlaşmanın formalaşması

ilə yanaşı, yaşayış məntəqələrinin funksional inkişafı ilə də bağlıdır. Müasir urbanizasiyanın xarakterik cəhətlərindən biri də onun elmi-texniki nailiyyətlər əsasında inkişaf etməsidir.

Urbanizasiya prosesində qarşıda duran əsas məsələlərdən biri də əhalinin məşğulluq problemidir. Belə ki, Azərbaycanda müstəqillik illərindən (1991-ci il) başlayaraq başqa sahələrdə olduğu kimi, aqrar sahədə də tənəzzülün baş verməsi, təsərrüfatların dağılması kənd əhlisinin iş yerlərinin itirməsinə səbəb oldu. Regionlarda istehsal müəssisələrinin bağlanması, torpaqlardan istifadənin (əkib-becərilməsinin) çətinləşməsi, iş yerlərinin şəhərlərdə cəmləşməsi kənd və rayon əhalisini məşğulluq problemlərinin həllini şəhərdə axtarmağa məcbur edirdi. Bu da əhalinin şəhərlərə, əsasən də Bakıya gəlməsinə səbəb olmuşdur. Yaranmış iqtisadi böhran, əhalinin dolanacaq şəraitinin xeyli pisləşməsi, yeni bazar münasibətlərinə keçidin doğurduğu əlavə çətinliklər, xüsusən ticarətin liberallaşması nəticəsində Gürcüstan Respublikasında yaşayan soydaşlarımızın müəyyən hissəsi, habelə Azərbaycan rayonlarının minlərlə sakini qeydiyyatsız böyük şəhərlərdə (xüsusən Bakıda) əhalinin sayını xeyli artırmış və şəhərlərin infrastrukturunda böyük gərginlik yaratmışlar.

Düşünürük ki, göstərilən problemlərə Bakı şəhər aqlomerasiyası sistemində baxılması, bununla əlaqədar şəhərsalma proseslərinin tənzimlənməsi dövrün ən aktual məsələlərindəndir.

Azərbaycan Respublikasının Prezidentinin yanında Strateji Araşdırmalar Mərkəzinin (bundan sonar - SAM) apardığı tədqiqatlar sübut edir ki, şəhərlər cəmiyyətin dayanıqlığını təmin edən orta təbəqənin formalaşmasında mühüm rol oynayır. Məsələn, Azərbaycanda orta təbəqənin əsas hissəsi şəhərlərdə yaşayır. Tədqiqat nəticələri şəhərlərin, əhalinin təhsil səviyyəsinin artmasına daha çox təsir göstərdiyini sübut edir. Belə ki, ali təhsilli orta təbəqənin böyük bir qismi yerli şəhərlərdə və ya böyük əksəriyyət Bakıda formalaşmışdır. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında deyilir ki, indidən ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Şəhər mühiti insan kapitalının inkişafı və bilik iqtisadiyyatının qurulması üçün yaxşı zəmin hazırlayır [4].

Beləliklə, Azərbaycan dövləti urbanizasiya prosesini qısa, orta və uzunmüddətli dönəmdə sistemli olaraq nəticəyə hesablanmış bir siyasət olaraq həyata keçirir. Urbanizasiya Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və əhalinin sosial rifahının yaxşılaşdırılması, habelə onun dünyagörüşünün və həyat tərzinin qlobal çağırışlarla uzlaşdırılması məqsədlərinə xidmət edir.

Aparılmış arşdırma və təhlillə belə nəticəyə gəlmək olar ki, planlı və nəzarət altında, düzgün siyasətə əsaslanacaq urbanizasiyanın bir çox müsbət cəhətləri vardır. Məsələn, elm və texnikanın səviyyəsi yüksəlir, mədəniyyət və incəsənətin səviyyəsi yüksəlir, ticarət və nəqliyyat inkişaf edir, istehsal edilən əmtəə və xidmətlərin keyfiyyəti artır, fikir mübadilələrində axıcılıq və canlanma yaranır, fikir müxtəlifliyinin inkişafı ilə məhsuldar bir təbəqə yarandığı halda regionlarda yaranan iqtisadi çətinliklər nəticəsində əhalinin şəhərə üz tutması paytaxtda əlavə problemlərin meydana gəlməsinə səbəb olur. Urbanizasiyanın müsbət cəhətləri ilə yanaşı mənfi nəticələri də vardır. Belə ki, şəhərlərə axının çoxalması və əhali sıxlığı, bu regionda torpaqların tikililərlə örtülməsi, ekoloji şəraitin mürəkkəbləşməsi və şəhər əhalisinin işlə təmin olunmasında çətinliklərin yaranması, işıq, qaz, su, kanalizasiya və digər kommunal xidmətlər sahəsində əmələ gələn yüklənmə, havanın çirklənməsi kimi problemlər hiss olunur. Hal-hazırda Bakı şəhəri dünyanın bütün böyük şəhərlərində olduğu kimi urbanizasiyanın mənfi fəsadlarını yaşayır. Bu da şəhər sakinlərinin sağlamlığına mənfi təsir göstərir. Urbanizasiya prosesi nəticəsində ətraf mühitin, havanın

çirklənməsi, yollarda nəqliyyatların yaratdığı tıxaclar, böyük səs-küy, insanlarda stress hallarını artıraraq müxtəlif xəstəliklərin əmələ gəlməsinə səbəb olur.

Dünyanın ən böyük ictimai və elm xadimlərindən biri Karl Marks öz "Kapital" əsərində qeyd edir: "Düşünürəm ki, indiki zamanda radikal alternativ ondan ibarət ola bilər ki, yaşanıla biləcək şəhərlər salınsın. Cəmiyyətin müxtəlif siniflərinin yaşaya biləcəyi şəhərlər, orta sinif üçün yeri olan, yalnız xüsusilə iri kapitalın tətbiqi meydançaları olaraq xidmət göstərməyəcək şəhərlər. Yalnız ən güclülər üçün deyil, hər kəs üçün azad mühit yaradan şəhərlər" [8, s. 23].

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə Azərbaycan Respublikasında 2021-ci ildə əhalinin ümumi sayı 10119,1 (on milyon yüz on doqquz min) təşkil edirdi. Onlardan 5358,5 (53,0%) şəhər yerlərində, 4760,6 (47,0%) nəfər isə kənd yerlərində yaşayır. Əhalinin ümumi sayından kişilər 5053,8 (49,9 %), qadınlar isə 5065,3 (50,1%) təşkil edir [6, s. 26].

Bu rəsmi statistik göstəricilər onu deməyə əsas verir ki, şəhər yerlərində yaşayan (53,0%) əhali ilə kənd yerlərində yaşayan (47,0%) əhali arasında yalnız (3,0%) fərq vardır. Lakin Bakı şəhərində inşa edilən çoxsaylı yaşayış mənzilləri, ticarət və iaşə obyektlərində alıcıların çoxluğu, şəhərdə hərəkətdə olan ictimai nəqliyyatın və şəxsi avtomabillərin say çoxluğundan yaranan tıxaclar, metrolarda yaranan sıxlıq, habelə gündəlik həyat tərzi onu deməyə əsas verir ki, şəhər yerlərində yaşayan əhalinin sayı, kənd yerlərində yaşayan əhalinin sayından (3,0%) deyil, daha çox faiz təşkil edir. Fikrimizcə, bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Belə ki, kənd yerlərində kifayət qədər iş yerlərinin olmaması, vətəndaşların müvafiq dövlət orqanlarının vəzifəli şəxsləri tərəfində hüquq və azadlıqlarının pozulması halları, kənd yerlərində tibb və səhiyyənin qənaətbəxş hesab edilməməsi və s. səbəblər nəticəsində kənd yerlərində yaşayan əhalinin müəyyən hissəsi şəhərə miqrasiya edirlər.

Təcrübə göstərir ki, çox vaxt urbanizasiya prosesləri qanunuyğun aparılmır. Müvafiq dövlət orqanları bu proseslərə nəzarət zəif aparır. Nəzərə alsaq ki, urbanizasiya prosesləri miqrasiya proseslərinin tərkib hissəsidir, bu halda urbanizasiya hüquqa əsaslanmalıdır. Məsələn, ölkəmizin hər hansı rayonun ərazisində daimi yaşayış yeri üzrə qeydiyyatda olan minlərlə vətəndaşlarımız qeydiyyatdan çıxmadan işləmək üçün Bakı şəhərinə gəlirlər. Onlar öz ixtisaslarına uyğun olaraq işə düzəlir və gəldiyi ünvanlarda illərlə qeydiyyatsız yaşayırlar. Müvafiq dövlət orqanları bu qəbildən olan hüquq pozuntularını vaxtında müəyyən edib qanunu tədbir görmürlər. Nəticədə minlərlə vətəndaşlarımız yaşayış yeri üzrə qeydiyyatsız yaşayırlar. Ölkəmizdə keçirilən əhalinin siyahıyaalınması tədbirlərində statistik məlumatların, habelə bütün növ seçkilərin keçirilməsində əhalinin say tərkibinin düzgün müəyyən edilməsinə öz mənfi təsirini göstərir. Fikrimizcə, bu formada urbanizasiya qanunamüvafiq hesab edilə bilməz.

Məlum olduğu kimi əhalinin yaşayış yerinə görə təsnifatı onun pasport qeydiyyatına görə təyin edilir. Belə ki, Milli qanunvericiliyimizə görə vətəndaşa ilk dəfə Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi verilərkən o, yaşayış yeri üzrə qeydiyyata alınır. Yaşayış yerini dəyişdirmiş vətəndaş yeni yaşayış yerinə gəldikdən sonra 10 gündən gec olmayaraq qeydiyyata alınması üçün müvafiq dövlət orqanına müraciət etməlidir. Müvafiq dövlət orqanı vətəndaşı dərhal qeydə almalı və ona 10 gün ərzində "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq şəxsiyyət vəsiqəsi verməlidir. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat" haqqında Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanununun 1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyatın məqsədi

Azərbaycan Respublikasında yaşayan şəxslərin uçota alınması, onların başqa şəxslər, dövlət və cəmiyyət qarşısında vəzifələrinin icra edilməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi (sosial müdafiə, pensiya təminatı, hərbi xidmətə çağırış, məhkəmə qərarlarının icrası və s.) üçün zəruri şərait yaratmaqdır [9]. Statistik məlumatların duzgun aparilması ucun bu qanunun tələblərinə duzgün əməl edilməlidir. Lakin bu gün əhalinin bir hissəsi pasport qeydiyyatında rayonlarda olsa da, Bakı və Sumqayıt kimi iri şəhərlərdə qeydiyyatsız yaşayırlar. Şərh etdiyimiz bu məsələ ilə bağlı təklif edirik ki, əhalinin siyahıyaalınması zamanı vətəndaşların siyahıya alınması qeydiyyat üzrə deyil onların faktiki yasadiğı yer üzrə aparilması məqsədə müvafiq hesab edilsin. Düşünürük ki, əhalinin bu yolla siyahiya alınması onun tam dəqiq sayının müəyyənləşdirər və ölkəmizdə urbanizasiya proseslərinin qanunauyğun tənzimlənməsinə köməklik etmiş olar.

Ümumiyyətlə qeyd etmək lazımdırki, əhalinin demoqrafiyası ilə bağlı ədəbiyyatlarda bir birinə zidd olan fikirlər səslədirilir. Belə ki, fikirlərin bir qismində əhalinin faktiki sayının statistik qrumlar tərəfindən qeyd edilən rəqəmlərlə üst üstə düşməməsi, digər yazılarda əhalinin siyahıya alınması aparılarkən qeydiyyatda olub faktiki başqa ünvanda yaşayan vətəndaşların ayrı ayrı siyahıya alınması və digər səbəblərdən siyahıya alınması aparılır. Təbii ki, bu cür nöqsanlarla əhalinin siyhıya alınmasını məqbul hesab etmək olmaz. Bütün bunlar urbanizasiya proseslərinin qanunauyğun tənzimlənməsinə də öz mənfi təsirini göstərir.

Qeyd etmək lazımdır ki, Milli qanunvericiliyimizdə yaşayış yeri üzrə qeydiyyatın aparılması ilə bağlı hüquq normaları mövcuddur. Lakin müvafiq dövlət orqanları tərəfindən bu hüquq normaların icrasına lazımı kimi əməl edilmir. Belə ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması" adlı 563-cü maddəsinin 563.1-ci göstərilir ki, vətəndaşın yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməməsinə, yaxud qeydiyyata alma və qeydiyyatdan çıxma qaydalarına əməl etməməsinə görə - xəbərdarlıq edilir və ya otuz manat məbləğində cərimə edilir [2, s. 123].

Göründüyü kimi, ölkəmizdə vətəndaşın yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməməsinə, yaxud qeydiyyata alma və qeydiyyatdan çıxma qaydalarına əməl etməməsinə görə ya xəbərdarlıq edilir və ya otuz manat məbləğində cərimə edilirlər. Fikrimizcə, bu hüquq normalarının pozulmasına görə tətbiq edilən inzibati cərimənin məbləği günün tələblərinə cavab vermir. Ona görə də daimi yaşayış yeri üzrə qeydiyyatsız yaşayan vətəndaşları sayı günü-gündə şoxalr. Bu baxımdan sözügedən hüquq pozuntusu ilə bağlı inzibati tənbeh növündə tətbiq edilən cərimənin məbləğinin artırılması məqsədəuyğun hesab edilməlidir. Bununla bağlı təklif edirik ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması" adlı 563-cü maddəsinin 563.1-ci maddəsi aşağıdakı kimi yeni mətndə verilsin:

"Vətəndaşın yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməməsinə, yaxud qeydiyyata alma və qeydiyyatdan çıxma qaydalarına əməl etməməsinə görə - yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir".

Düşünürük ki, verdiyimiz təklif Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavə edilərsə onda ölkəmizdə urbanizasiya proseslərinin qanunauyğun aparılması təmin ediləcək, habelə ölkəmiizdə cinayətkarlığa qarşı mübarizənin vaxtında aparılması və ictimai asayişin təmin edilməsinə köməklik göstərəcəkdir.

Beləliklə, miqrasiya proseslərində urbanizasiyanın yeri və rolu ilə bağlı apardığımız təhlillər onu deməyə əsas verir ki, dünyanın əksər ölkələrində olduğu kimi ölkəmizdə də urbanizasiyanın baş

vermə səbəbləri obyektiv və subyektiv amillərlə bağlıdır. Belə ki, bu səbəblərin bir qismi sosial-iqtisadi inkişaf haqında qəbul edilmiş normativ hüquqi aktların lazımı səviyyədə icra edilməməsi, kənd yerlərində iş yerlərinin az olması və əhalinin sosial-məişət vəziyyəti ilə bağlı olan problemlərdisə, digər səbəbi isə bəzi dövlət məmurları tərəfindən vətəndaşların hüquq və azadlıqlarının pozulması, həmçinin vətəndaşlar tərəfində qanunlara düzgün əməl edilməməsi ilə əlaqədardır. Fikrimizcə, bu istiqamətdə vediyimiz təkliflər qəbul edilərsə, bu halda ölkəmizdə urbanizasiya proseslərinin qanunauyğun tənzimlənməsinə köməklik etmiş olacaqdır.

**Biblioqrafiya**


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Qanun nəşriyyatı, 2021. - 92 s.
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. – Bakı: Hüquq nəşriyyatı, 2020.
3. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli 24 nömrəli Fərmanı.
4. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı [Elektron resurs]. URL: https://e-qanun.az/framework/25029 (müraciət tarixi: 05.04.2022).
5. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/41320 (müraciət tarixi: 05.04.2022).
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi "Azərbaycanın demoqrafik göstəriciləri" Statistik məcmuə/2021. [Elektron resurs]. URL: https://www.stat.gov.az/source/demoqraphy/ (müraciət tarixi: 12.04.2022).
7. Hüseynov S.Y. Şəhərsalmanın sosial-ekoloji və hüquqi məsələləri // Fəlsəfə. Elmi-nəzəri jurnal. - Bakı, 2007. - №1.
8. Karl Marx. Kapital. Siyasi İqtisadın Tənqidi. / bərk Tərcümə: Gülməmmədov A., Məlikov S., Cabbarov C., Ağamirov M. – Bakı: Qanun Nəşriyyatı, 2016. - 808 s.
9. Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat" haqqında Azərbaycan Respublikasının 4 aprel 1996-cı il tarixli 55-IQ nömrəli Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3988 (müraciət tarixi: 02.04.2022).
10. Словарь иностранных слов. – М: Русский язык, 1986. - 607 с.
11. Соболева Н.П., Замятина Ю.Л. и др. Геоурбанистика: учебное пособие. - Томск: Томский политехнический университет, 2012. – 301 с.
12. Советский Энциклопедический словарь. – М: Советская Энциклопедия, 1987. – 1599 с.
13. https://az.wikipedia.org/wiki/Urbanizasiya
14. https://az.wikipedia.org/wiki/Etnoqrafiya
15. https://azport.info/15719/urbanizasiya-nədir.
16. https://www.stat.gov.az/source/demoqraphy/.
17. https://www.azleks.az/az/online-dictionary/suburbanizasiya.
18. https://az.wikipedia.org/wiki/%C4%B0nki%C5%9Faf_etmi%C5%9F_%C3%B6lk%C9%99l%C9%99r.
19. https://az.wikipedia.org/wiki/Aqlomerasiya.
20. https://www.azleks.az/az/online-dictionary/meqapolis.

**Sadigova A.N.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.149-161**
**UDC: 314.727.2**

## The place and role of urbanization in migration processes

**Abstract:** The article examines the place and role of urbanization in migration processes. Definitions of urbanization, factors determining it, statistical data, its legal essence and a number of normative legal acts adopted in this field are compared. It is concluded that urbanization is an integral part of migration processes. There are also a number of scientific proposals on the shortcomings of the urbanization process.

**Keywords:** migration; migration processes; urbanization; urbanization processes; city; rural areas; registration; statistics; demography; megalopolis; agglomeration.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Ganun Publ., 2021, 92 p. (in Azerbaijani).
2. Code of Administrative Offences of the Republic of Azerbaijan. Baku, Huquq Publ., 2020. (in Azerbaijani).
3. Decree of the President of the Republic of Azerbaijan No. 24 dated February 11, 2004 (in Azerbaijani).
4. Decree of the President of the Republic of Azerbaijan No. 800 dated December 29, 2012 on approval of the Development Concept "Azerbaijan 2020: vision for the future". Available at: https://e-qanun.az/framework/25029 (accessed: 05.04.2022) (in Azerbaijani).
5. Decree of the President of the Republic of Azerbaijan No. 500 dated January 29, 2019 on approval of the "State Program of socio-economic development of the regions of the Republic of Azerbaijan in 2019-2023". Available at: https://e-qanun.az/framework/41320 (accessed: 05.04.2022) (in Azerbaijani).
6. State Statistics Committee of the Republic of Azerbaijan "Demographic indicators of Azerbaijan" Statistical collection / 2021. Available at: https://www.stat.gov.az/source/ demoqraphy/ (accessed: 12.04.2022) (in Azerbaijani).
7. Huseynov S.Y. Socio-ecological and legal issues of urban planning // Philosophy. Scientific-theoretical journal. Baku, 2007. No. 1 (in Azerbaijani).
8. Karl Marx. Capital. Critique of Political Economy. Transl. by GulmammadovA., et al. Baku, Ganun Publ., 2016, 808 p. (in Azerbaijani).
9. Law of the Republic of Azerbaijan No. 55-IQ of April 4, 1996 on "Registration by place of residence and location". Available at: https://e-qanun.az/framework/3988 (accessed: 02.04.2022) (in Azerbaijani).

[♦] **Sadigova Afag Nadir** - Senior researcher of the "Civil law, civil process, socio-economic rights" Department of the Institute of Law and Human Rights (Azerbaijan). E-mail: afaqsadiqova6@gmail.com

10. *Slovar' inostrannyh slov* [Dictionary of foreign words]. Moscow, Russky yazyk Publ., 1986, 607 p.

11. Soboleva N.P., Zamyatina Yu.L. et al. *Geourbanistika:* uchebnoe posobie [Geourbanistics: textbook]. Tomsk, Tomsk Polytechnic University Publ., 2012, 301 p.

12. *Sovetskiy Entsiklopedichesky slovar'* [Soviet Encyclopedic dictionary]. Moscow, Sovetskaya Entsiklopedia Publ., 1987, 1599 p.

13. https://az.wikipedia.org/wiki/Urbanizasiya

14. https://az.wikipedia.org/wiki/Etnoqrafiya

15. https://azport.info/15719/urbanizasiya-nədir.

16. https://www.stat.gov.az/source/demoqraphy/.

17.https://www.azleks.az/az/online-dictionary/suburbanizasiya.

18.https://az.wikipedia.org/wiki/%C4%B0nki%C5%9Faf_etmi%C5%9F_%C3%B6lk%C9%99l%C9%99r.

19. https://az.wikipedia.org/wiki/Aqlomerasiya.

20. https://www.azleks.az/az/online-dictionary/meqapolis.

**Садыгова А.Н.♦**

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.67.149-161**
**УДК: 314.727.2**

## Место и роль урбанизации в миграционных процессах

**Аннотация:** Рассматривается место и роль урбанизации в миграционных процессах. Сопоставляются определения урбанизации, определяющие ее факторы, статистические данные, ее правовая сущность и ряд нормативных правовых актов, принятых в этой сфере. Делается вывод о том, что урбанизация является неотъемлемой частью миграционных процессов. Также имеется ряд научных предложений о недостатках процесса урбанизации.

**Ключевые слова:** миграция; миграционные процессы; урбанизация; процессы урбанизации; город; сельские районы; регистрация; статистика; демография; мегаполис; агломерация.

## Библиография

1. Конституция Азербайджанской Республики. – Баку: Ганун, 2021 (на азерб. яз.).

2. Кодекс об административных правонарушениях Азербайджанской Республики. – Баку: Хугуг, 2020 (на азерб. яз.).

3. Указ Президента Азербайджанской Республики №24 от 11 февраля 2004 г. (на азерб. яз.)

4. "Указ Президента Азербайджанской Республики №800 от 29 декабря 2012 года об утверждении Концепции развития «Азербайджан 2020: взгляд в будущее» [Электронный ре-

♦ **Садыгова Афаг Надир кызы** – старший научный сотрудник отдела «Гражданское право, гражданский процесс, социально-экономические права» Института права и прав человека (Азербайджан). E-mail: afaqsadiqova6@gmail.com

сурс] Режим доступа: https://e-qanun.az/framework/25029 (дата обращения: 05.04.2022) (на азерб. яз.).

5. Указ Президента Азербайджанской Республики № 500 от 29 января 2019 года об утверждении «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики на 2019-2023 годы» [Электронный ресурс]. Режим доступа: URL: https://e-qanun.az/framework/41320 (дата обращения: 05.04.2022) (на азерб. яз.).

6. Государственный комитет по статистике Азербайджанской Республики «Демографические показатели Азербайджана» Статистический сборник / 2021. [Электронный ресурс]. URL: https://www.stat.gov.az/source/demoqraphy/ (дата обращения: 12.04.2022) (на азерб. яз.).

7. Гусейнов С.Ю. Hüseynov S.Y. Социально-экологические и правовые проблемы градостроительства // Философия. Научно-теоретический журнал.- Баку, 2007. - №1. (на азерб. яз.).

8. Карл Маркс. Капитал. Критика политической экономии: пер. А. Гюльмамедова, С. Маликова, Д. Джаббарова, М. Агамирова. – Баку: Ганун, 2016. – 808 с. (на азерб. яз.).

9. Закон Азербайджанской Республики № 55-IQ от 4 апреля 1996 года «О регистрации по месту жительства и местонахождению». [Электронный ресурс]. Режим доступа: https://e-qanun.az/framework/3988 (дата обращения: 02.04.2022).

10. Словарь иностранных слов. – М: Русский язык, 1986. 607 с.

11. Соболева Н.П., Замятина Ю.Л. и др. Геоурбанистика: учебное пособие. - Томск: Томский политехнический университет, 2012. – 301 с.

12. Советский Энциклопедический словарь. – М: Советская Энциклопедия, 1987. – 1599 с.

13. https://az.wikipedia.org/wiki/Urbanizasiya

14. https://az.wikipedia.org/wiki/Etnoqrafiya

15. https://azport.info/15719/urbanizasiya-nədir.

16. https://www.stat.gov.az/source/demoqraphy/.

17.https://www.azleks.az/az/online-dictionary/suburbanizasiya.

18.https://az.wikipedia.org/wiki/%C4%B0nki%C5%9Faf_etmi%C5%9F_%C3%B6lk%C9%99l%C9%99r.

19. https://az.wikipedia.org/wiki/Aqlomerasiya.

20. https://www.azleks.az/az/online-dictionary/meqapolis.